# Çinin Neft Universitetinin nümayəndə heyəti ilə görüş



Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru, professor Mustafa Babanlı Çinin Neft Universitetinin nümayəndə heyəti ilə görüşüb. Rektor ADNSU ilə Çinin Neft Universiteti arasındakı əlaqələri yüksək dəyərləndirərək iki ali məktəb arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinin zəruriliyini qeyd edib. Hazırda ADNSU-da 95-i bakalavr, 15-i isə hazırlıq pilləsində olmaqla ümumilikdə 110 çinli tələbənin təhsil aldığını qeyd edən professor M.Babanlı onların hazırlıq səviyyəsi ilə bağlı fikirlərini bildirib. Qeyd edilib ki, çinli tələbələr universitetdə fəaliyyət göstərən hazırlıq pilləsində təhsil ala bilər. Burada çinli gənclərə dil bilikləri ilə yanaşı kimya, fizika, riyaziyyat fənləri keçiləcək və daha sonra onlara biliklərinin müqabilində birinci kursdan başlayaraq ADNSU-da təhsil almaq imkanı yaradılacaq.

Çinin Neft Universitetinin nümayəndə heyətinin rəhbəri Çjan Dun Ye ADNSU ilə əməkdaşlığa xüsusi önəm verdiklərini qeyd edib. O, çinli tələbələrlə görüşəcəyini və burada söylənilən müəyyən məsələləri müzakirə edəcəklərini bildirib. Çinin Neft Universitetinə tezliklə yeni rektorun rəhbərlik edəcəyini qeyd edən qonaq ADNSU-nun rektoru M.Babanlını təmsil etdiyi ali məktəbə dəvət edib.

Sonda rektor Mustafa Babanlı rəhbərlik etdiyi ali təhsil ocağında çinli tələbə kontingentinin sayının artmasını arzuladığını, lakin bunun keyfiyyətin aşağı düşməsi hesabına baş verməli olmadığını bildirib. Nümayəndə heyətinə Çinə dəvətə görə təşəkkürünü bidirən rektor Çinin Neft Universiteti ilə əməkdaşlığın inkişaf etdirilməsi üçün müxtəlif müstəvilərdə, o cümlədən elmi layihələr üzərində birgə fəaliyyətin səmərəli olacağını vurğulayıb.

**Mətbuat xidməti**